BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2013*

# JURNALİSTİKA

**UOT 316.77:001.12/.18; 070:001.12/18**

## VƏTƏNDAŞ CƏMİYYƏTİNDƏ SÖZ VƏ İNSAN AZADLIĞININ SOSİAL-SİYASİ MAHİYYƏTİ

**İ.A.MAZANLI**
***Bakı Dövlət Universiteti***
***micenteraz@gmail.com***

*Məqalədə kütləvi-informasiya vasitəsinin (KİV) cəmiyyətin demokratikləşməsi, vətəndaş cəmiyyətinin qurulması prosesində söz və insan azadlığının, informasiya hüququnun gerçəkləşdirilməsi vasitəsi kimi nəzərdən keçirilir, vətəndaş cəmiyyətində söz və insan azadlığının sosial-siyasi mahiyyətinin araşdırılması məsələlərinə diqqət yetirilir. Eyni zamanda, KİV vətəndaş cəmiyyətinin mühüm elementi kimi xarakterizə edilir. Məqalədə həmçinin cəmiyyətdəki aidiyyatlı sosial-siyasi institutların bu sahədə fəaliyyətlərinin təkmilləşdirilməsi məqsədilə müəyyən elmi və praktik tövsiyələr işlənib-hazırlanmışdır.*

**Açar sözlər:** söz azadlığı, mətbuat, insan azadlığı, vətəndaş, cəmiyyət, KİV

Bəşər tarixi boyunca fəlsəfi, sosial-siyasi və sosial-hüquqi bəhslər arasında geniş müzakirə və mübahisə obyektinə çevrilən məsələlərdən biri də insan, insan azadlığı, insan və təbiət, insan və cəmiyyət arasındakı münasibətlər problemidir.

Azərbaycan yazılı ədəbiyyatının ən qədim nümunəsi olan (e.ə. VI əsr) "Avesta"da xalqımızın dualist dünyagörüşü, ibtidai insanın xeyirlə şərin mübarizəsi barədə düşüncələri ilə yanaşı, qədim insanların dünyanı və cəmiyyəti idarə edən xeyir və şər qüvvələr haqqında təsəvvürləri bədii-obrazlı şəkildə əks olunmuşdur. "Avesta"nın "Qatlar" hissəsində isə insan və cəmiyyət, təbiət və fərd haqqında sosial-əxlaqi düşüncələr öz əksini tapmışdır.

Klassik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, şair-filosof, nasir Xaqani Şirvani (1126-1199) özünün Azərbaycan ədəbiyyatında ilk epistolyar məsnəvi sayılan "Töhfətül-İraqeyn" ("İki İraqın töhfəsi") (1156) poemasında bədii simvol və eyhamlardan istifadə edərək insanla (öz timsalında) mühit arasındakı ziddiyyətləri açıb göstərə bilmişdir [2, 21-99]. Onun

sosial-əxlaqi və fəlsəfi motivli əsərlərində ("Şiniyyə qəsidəsi") sağlam və dərin humanizm, insan və onun mənəvi aləmi, daxili və zahiri həyəcanları, təzadlı münasibətləri, insan və cəmiyyət arasındakı əlaqələr haqqında düşüncələri özünün poetik əksini və şərhini tapır [2,9].

Eyni zamanda, böyük şairin düşüncələrində güclü bir etiraz, coşqun bir inkar müşahidə olunur ("Mədain xərabələri" qəsidəsi). Bu inkar ayrı-ayrı fərdlərin, hadisələrin deyil, Xaqani dövrünün insanını, onun istək və arzularını, azadlığını məhdudlaşdıran baxışların, insan aglını, hissini, istedadını özünə qul edən zəmanənin inkarıdır [2, 381-384].

Xaqaninin yaradıcılığında dialektik inkişaf meyli özünü açıq şəkildə büruzə verir. O, təbiəti və cəmiyyəti durğun vəziyyətdə deyil, daim inkişafda və yüksəlişdə nəzərdən keçirir. Şair işığın zülmətə, ədalətin zülmə, ağılın nadanlığa hökmranlıq etdiyi bir cəmiyyətin gələcəyinə inanır, elmin, mədəniyyətin və insanın inkişafı sayəsində hər bir kəsin rahat nəfəs ala biləcəyi və azad yaşayacağı bir cəmiyyətin yaranacağını arzu edir.

Xaqani əvvəlcə cansızlar aləminin, sonra nəbatatın, daha sonra heyvanatın və nəhayət insanın yarandığını iddia edir. O qeyd edir ki, insan özündən əvvəlkilərdən daha mürəkkəb və eyni zamanda daha kamil orqanizm kimi formalaşmışdır. Xaqani insan və canlı təbiət arasındakı əlaqələr və bu münasibətlər sistemində insanın yeri haqqında mülahizələrində onun əqlinin hər şeyi həll edəcəyini, bütün çətinliklərə qalib gələcəyini göstərir [10].

İlkin Şərq İntibahının zirvəsi, dünya ədəbiyyatının korifeylərindən biri, böyük mütəfəkkir Nizami Gəncəvinin (1141-1209) yaradıcılığı insan və söz azadlığı haqqında diskurslarla olduqca zəngindir. Onun əsərlərində dövrün ən humanist, ümümbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları, azad həyat və cəmiyyət, sosial təbəqəsindən asılı olmayaraq bütün insanların azadlığa olan haqları özünün parlaq bədii əksini tapmışdır.

Nizami cəmiyyətlə təbiət arasında (insan və digər canlıların timsalında) vəhdət olduğu qənaətinə gəlir. O, təkamül amillərinə (dəyişkənlik, irsiyyət, seçim, yaşayış uğrunda mübarizə), onun formalarına, mühitə uyğunlaşmaya və məqsədəuyğunluğun nisbiliyinə aid maraqlı fikirlər irəli sürür. İnsanın şəxsiyyətinə, cəmiyyətdəki yerinə və azadlığına, əməyinə hörmət çağırışları Nizami yaradıcılığının ana xəttini təşkil edir [6,95-109;110-113].

Böyük şair özünün "Leyli və Məcnun" poemasında insan azadlığı ideyasının reallaşması üçün münbit şərait olmayan və ya bu şəraiti yaratmaq istəməyən cəmiyyətdə insanın sevib-sevilmək azadlığı problemlərinə tamamilə yeni baxış nümayiş etdirir. Şair cəmiyyətin və şəxsiyyətin inkişafına mane olan elementləri tənqid edir, insan azadlığı ideyasının vacibliyini əsaslandırır. Nizami Şərq ədəbiyyatında ilk dəfə məhəbbətin sosial mahiyyətini açır, nəcib məhəbbət konsepsiyasını yaradır, onu insan azadlığı, vicdan və sevgi azadlığı ilə əlaqələndirir [8].

Görkəmli orta əsr Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzuli (1494-1556) bərqərar olma və parçalanmanı, birləşmə və ayrılmanı inkişafın

əsas amili, insanı isə inkişafın ən kamil və güclü bəndi hesab edir. Füzuli də Nizami kimi cəmiyyətlə təbiət arasında vəhdətin olduğunu təsdiqləyir, insanı digər canlılardan onun nitq qabiliyyəti ilə fərqləndirir, nitqi və sözü ayrılıqda cəmiyyətin inkişafının, ümumilikdə isə insanı bəşəriyyətin mövcudluğunun qorunub-saxlanılmasının başlıca səbəbi kimi nəzərdən keçirir. "Şair "eşq" sözünü yalnız oğlan və qız arasında yox, ümumiyyətlə, insanlar arasında, insani ülfət, təmiz məhəbbət mənasında işlədir" [5].

Füzuli insana sosial aspektdən yanaşır, onu azad iradəli görmək istəyir və onun formalaşmasında ictimai amillərin rolunu xüsusi vurğulayır, insanı sosial-təbii proseslərin vacib elementlərindən biri kimi nəzərdən keçirir. Şair aləmin hərəkətdə və inkişafda olduğunu görür, təkamülü hərəkət forması kimi izah edir: "Hərəkət bir şeyin iki anda iki yerdə olması, sükunət isə onun iki anda eyni bir yerdə olmasıdır" [4.105].

İnsan, cəmiyyət və təbiət, onların vəhdəti, bir-birlərinə təsiri Qərb fəlsəfəsində də ən çox araşdırılan problemlərdən biridir. Nizami Gəncəvidən dörd yüz il, Məhəmməd Füzulidən isə təxminən yüz il sonra yaşamış ingilis filosofu, empirizmin banisi, siyasi xadim Frensis Bekon (1561-1626) insanın və ictimai subyektin ətraf aləmlə qarşılıqlı təsirini, onların xüsusi və ikili təbiətini qeyd edir və göstərir ki, yalnız təbiətə tabe olmaqla onun üzərində hökmranlıq etmək olar [13,83]. İnsan daim təbiəti özünə tabe etməyə can atır və ona yeni, daha güclü təsir vasitələri axtarır, münasibətlərini bir qədər də genişləndirməyə və əvvəllər ona yad olan, dərk etmədiyi predmet və proseslərlə yeni münasibətlər yaratmağa səy göstərir.

F.Bekondan təxminən iki yüz il sonra, maarifçilik və romantizm dönəmlərinin kəsişdiyi bir dövrdə yaşamış, alman klassik fəlsəfəsinin banisi İmmanuel Kantın (1724-1804) ətraf aləm haqqında hipotezləri (günəş sisteminin yaranması), idrak, insan, mənəviyyat, dövlət və hüquq barədə mülahizələri azadlığın sosial-siyasi mahiyyətinin açılmasında mühüm əhəmiyyət kəsb edir. O, təbiətlə azadlığın insan fəaliyyətini xarakterizə edən harmoniyasından bəhs edərkən, məhz məhdudlaşdırılmış və şərtləşdirilmiş azadlığı nəzərdə tutur [17,195]. Kanta görə, iki növ səbəbiyyət mövcuddur və onlardan biri təbiət qanunlarına, digəri isə azadlığa uyğun gəlir [9].

Görkəmli alman filosofu, idealizmin parlaq nümayəndələrindən biri Fridrix Şellinq (1775-1854) insan azadlığının təbii zərurətlə ədavətdə deyil, ittifaqda inkişaf etdiyini vurğulayır. O, azadlığı bəşəriyyətin əsas problemi, fəlsəfənin isə əsas predmeti adlandırır. Azadlığa meyllilik insanın təbiətindədir və tarixi prosesin əsas məqsədidir. Azadlıq ideyasının sonuncu ifadəsində insanlar "ikinci təbiət"i – hüquqi quruluşu yaradırlar. Gələcəkdə hüquqi quruluş dövlətdən dövlətə yayılmalı, bəşəriyyət dünya üzrə ümumi hüquqi quruluşa gəlməli və hüquqi dövlətlərin ümumdünya federasiyası halında birləşməlidir [12].

O, "özündə şeylər" anlayışının inkarını iki cür – praktik və nəzəri kritisizmdən çıxış edərək əsaslandırır və izah edir ki, kritisizm və doqmatizm ayrı-ayrı prinsipdən – birinci halda subyekt, ikinci halda isə obyekt anlayışla-

rından əmələ gəlmişdir. Doqmatizm - zərurət, kritisizm isə - azadlıq fəlsəfəsidir. Azadlıq mahiyyətcə kritisizmin əsas və ən qiymətli prinsipidir. Lakin "özündə şeylər" anlayışı azadlıq anlayışı ilə barışmaz ziddiyyət təşkil edir. Çünki dərk olunmayan "özündə şeylər" şəklində mütləq azad obyektin müqavimət göstərdiyi subyekt azad ola bilməz. Yalnız obyektin tamamilə subyektin tərkibindən çıxarıldığı halda azadlıq haqqında danışmaq olar. Şellinqə görə, azadlığın həyata keçirilməsi tarixi proses kimi dərk edilməlidir. Lakin burada ayrı-ayrı fərdlərin deyil, hamının azadlığı nəzərdə tutulduğu üçün onun reallaşdırılması hüquqi nizamın məhdudlaşdırılması ilə baş verir və nəticə etibarilə bu cür hüquqi nizamın yaradılması özündə azadlığı və zərurəti ehtiva edir [20].

Qədim dövr yunan filosofu, atomistikanın və materialist fəlsəfənin yaradıcılarından biri Abderli Demokritin (eramızdan əvvəl 460-370) insan, həyat və dəyərlər haqqında mülahizələri onun cəmiyyət və dövlət haqqında təsəvvürləri ilə sıx bağlıdır. Demokratiyanın bəzi əxlaqi dəyərlərlə çulğalaşmış mühüm prinsipləri Demokritin sosial-əxlaqi idealı idi. O, daha çox sayda insanı ictimai işlərdə iştirak etməyə çağırır, vətəndaşların sosial fəallığını yüksək qiymətləndirir, insanın cəmiyyət və dövlət üçün heç nə etməməsini isə zərərli hal hesab edir [18, 318-320]. Demokritə görə, hər bir vətəndaşın azadlığı cəmiyyətin azadlığı ilə bağlıdır [15,241].

Kant bu fikri inkişaf etdirərək göstərir ki, qanunlara uyğun olaraq, daha çox insan azadlığına əsaslanan, sayəsində hər bir kəsin azadlığının qalan şəxslərin azadlığı ilə uzlaşmasını təmin edən dövlət quruluşu ... zəruri ideyadır [16, 351-352]. Kanta görə, qanuna riayət edən vətəndaş qəti imperativ tabe olaraq, müvafiq çərçivələr daxilində öz meyllərinin azad oyununa yol verir [16, 356]. İnsanın cəmiyyətdəki nominal, məhdud və şərtləşdirilmiş azadlığını məhz bu müddəa müəyyənləşdirir. Özünü cəmiyyətin qanuni vətəndaşı hesab edən insan başqalarının, sosial institutların mövcudluğu, iradə və niyyətləri ilə hesablaşmağa məcburdur, bununla da o, öz niyyətlərini əsaslandırmış və beləliklə də, ictimai qanun və normalarda nəzərdə tutulan üsullarla onlara zərər vurulmaması barədə öhdəlik götürmüş olur. İ.Kant bu öhdəliklərdən birinin azadlıq nöqteyi-nəzərindən özbaşınalığını digər bir öhdəliyin özbaşınalığı ilə bir araya gəldiyini əsaslandırır [16, 364].

Fransız yazıçı, maarifçi filosof, siyasi mütəfəkkir və sosioloq Şarl Lui Monteskye (1689-1755) təbiət və cəmiyyət hadisələrinin tabe olduğu ümumi qanunauyğunluluq ideyasını inkişaf etdirmişdir. O, azadlığı qanunun yol verdiyi hər şeyi etmək hüququ kimi müəyyən edərək, onu həm də insanın nominal azadlığı kimi nəzərdən keçirir [19, 185].

Fransız materialist filosofu Pol Anri Holbaxın (1723-1789) nəzərincə, insan təbiətin bir hissəsi olub, onun qanunlarına tabedir. Holbax dünyanı fikirlərin idarə etdiyini göstərir. O, insanların azadlığını maarifdə görür və Kantın mövqeyinə oxşar mövqe tutaraq, azadlığı "öz xoşbəxtliyi naminə cəmiyyətdə yaşayan insanın təbiətinin yol verdiyi hər şeyi etmək imkanı" kimi qiymətləndirir [11]. Holbax cəmiyyətin hər bir üzvünün nominal azadlığını qanunauyğun və

səbəbiyyət əlaqəsindən asılı edən ictimai zərurəti cəmiyyətin məqsədlərinə zərər vura biləcək insanları bu əməldən çəkindirən səbəb kimi təsvir edir [14,242].

Ümumiyyətlə, "insan azadlığı" və "insan hüquqları" ideyası İntibah dövrü humanistlərinin insan şəxsiyyətinin fəlsəfi baxımdan əsaslandırmaları nəticəsində daha da cilalanmışdır. Əsas insan azadlıqlarının silklərə məxsus olmadığının etiraf edilməsi, dünya məhkəmələrinin yaranması və fəaliyyətləri, istiqlaliyyət uğrunda mübarizə təcrübələri (İsveçrə kantonlarının mübarizəsi, Niderland və İngiltərə inqilabları) də bu sahədə mühüm rol oynamışdır. İngilis filosofu Tomas Hobbs (1588 –1679) "Levia fan" əsərində 19 təbii qanunun tərifini verməyə çalışmışdır. Görkəmli siyasi xadim (ABŞ), maarifçi filosof Tomas Cefferson (1743-1826) dövrünün siyasi xadim və mütəfəkkirlərinin fikirlərinə əsaslanaraq, "İstiqlaliyyət bəyannaməsi"ndə (1776) insan hüquqlarının klassik tərifini ifadə etmişdir: "... Tanrı bütün adamları yaratmış və onlara müəyyən ayrılmaz hüquqlar vermişdir. Yaşamaq, azadlıq hüququ və xoşbəxtliyə can atmaq bu hüquqlar sırasındadır" [7,106].

İnsan azadlıq və haqları ideyaları tarixdə baş vermiş sonrakı inqilabların təcrübəsi, sosial fəlsəfənin və sosial-siyasi elmlərin təşəkkülü sayəsində daha da inkişaf etmişdir. Politologiya üzrə ensiklopedik lüğətdə insanın azadlıq və hüquqları arasındakı əlaqə insan hüquqlarının ayrılmaz tərkib hissəsi kimi izah edilir. Fərd bu hüquq və azadlıqları doğulduğu andan etibarən əldə edir [7,106-107].

İnsan hüquqlarının əsasında duran əsas prinsiplər azadlıq və bərabərlikdir. Müasir dövrdə Azərbaycanda insan hüquqlarının azadlıq və bərabərlik prinsiplərinin inkişafı demokratik vətəndaş cəmiyyətinin qurulması ideyası ilə vəhdət təşkil edir. Azərbaycan Respublikası (AR) Konstitusiyasının (1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş hazırkı Konstitusiyası) 26-ci maddəsinin II hissəsi bu müddəanı bəyan edir: "Dövlət hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir".

AR Konstitusiyasına şərhlərində izah edilir ki, insan, onun hüquq və azadlıqları ən ali dəyərlərdir. İnsanın və vətəndaşın hüquq və azadlıqlarının tanınması, müdafiəsi və onlara riayət olunması dövlətin vəzifəsidir [1,134].

AR Konstitusiyasının 71-ci maddəsinin VI hissəsi Azərbayacan Respublikasının əraizisində insan və vətəndaş hüquqlarının və azadlıqlarının birbaşa qüvvədə olmasına təminat verir. Azərbaycan Respublikasının vətəndaşı Azərbaycanın ərazisində Konstitusiyanın nəzərdə tutduğu bütün hüquq və azadlıqlara malikdir [1, 296]. Eyni zamanda, hər bir şəxs dövlət və cəmiyyət qarşısında onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələri (72-ci maddənin I hissəsi) [1, 310-311] və məsuliyyət daşıdığı (80-ci maddə) [1, 337] xüsusilə nəzərə çatdırılır.

Şəxsi hüquqlardan fərqli olaraq siyasi hüquq və azadlıqlar hər bir fərdin fəal şəkildə ölkənin həyatına və onun idarə olunmasına cəlb edilməsinə yönəldilmişdir. Bu hüquq və azadlıqlar insan və cəmiyyət, dövlət və vətəndaş arasındakı əlaqələrin möhkəmlənməsinə şərait yaradır. Konstitusiya quruluşunun möhkəmliyi, demokratiyanın reallığı, əhalinin siyasi mədəniyyətinin səviy-

yəsi siyasi hüquq və azadlıqların vəziyyətindən olduqca asılıdır. Bununla yanaşı, siyasi hüquq və azadlıqlar şəxsi hüquq və azadlıqlardan ayrılıqda deyil, onların fonunda, onlarla qarşılıqlı əlaqədə və ilk növbədə insana hörmət əsasında inkişaf edir.

Azərbaycan Respublikası vətəndaşlarının cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək hüququnun həyata keçirilməsi dövlət tərəfindən müəyyən təminatların verilməsini tələb edir. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın 17-ci maddəsi Azərbaycan Respublikasının başlıca vəzifələrindən birini aşağıdakı kimi müəyyən etmişdir: "Sosial fəallığın bütün növlərinə rəvac verməli və onları əlaqələndirməli, bütün vətəndaşların mənafelərinin qanuna əsasən uzlaşmasını təmin etməli, hər bir şəxsin azad inkişafı üçün bərabər şərait yaratmalıdır".

Azərbaycan Respublikası Konstitusiyasına verilən şərhə görə, ölkədə demokratiyanın inkişafı, fikir və söz azadlığının mövcudluğu, seçki hüququ, birləşmək hüququ və digər siyasi hüquqlar və azadlıqlar vətəndaşların cəmiyyətin və dövlətin siyasi həyatında iştirakına hüquqi zəmin yaradır.

Fikir və söz azadlığı insanın təbii ayrılmaz hüququdur və cəmiyyətin bütün üzvləri tərəfindən dövlətin bərabər əsaslarla idarə olunmasında maraqlı olan demokratik rejimin ən vacib əlamətlərindəndir. Fikir və söz azadlığının məhdudlaşdırılması, onun qismən və ya tam susdurulması totalitar rejimə xas olan xüsusiyyətdir. Yalnız bu tipli dövlətlərdə cəmiyyətə zorla qəbul etdirilən və hökmranlıq edən ideologiya ilə bir araya sığmayan əqidə sahibləri daim təqib olunurlar. Fikir və söz azadlığı elə bir sosial təzahürdür ki, bunsuz insanların normal həyat fəaliyyətləri, şəxsiyyət azadlığı və azad cəmiyyət təmin edilə bilməz [1,216].

İnsan hüquqları haqqında ümumi Bəyannamənin 18-ci, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 19-cu, "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının 29-cu maddələri fikir və söz azadlığının təminatı və bu hüquqdan istifadə olunmasının hər bir kəsin üzərinə qoyduğu xüsusi vəzifələr və hər bir kəsdən tələb etdiyi məsuliyyət öz əksini tapır.

Azərbaycan Respublikasının "Məlumat azadlığı haqqında" 19 iyun 1998-ci il tarixli, "Kütləvi informasiya vasitələri haqqında" 7 dekabr 1999-cu il tarixli, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" 3 aprel 1998-ci il tarixli Qanunları fikir və söz azadlıqlarının həyata keçirilməsini tənzimləyir, bu sahədəki hüquq, vəzifə və məsuliyyətləri müəyyən edir.

Vətəndaşların dövlətin siyasi həyatında iştirakı cəmiyyət daxilində siyasi baxışların müxtəlifliyi, siyasi sistemin inkişaf yollarının müəyyən edilməsində müxtəlif yanaşmalar ilə seçilir. Cəmiyyətin və dövlətin siyasi həyatında vətəndaşların iştirakının fəallığı demokratiyanın inkişafının mühüm göstəricisidir. Bu sahədə vətəndaşların iştirakını təmin edən hüquqlardan biri də onların

kütləvi informasiya vasitələrinin köməyilə öz baxışlarını təbliğ etmək hüququdur [1,241].

Müasir dövrdə dünyanın əksər ölkələrində müxtəlif ideologiyalar arasında vətəndaşların düşüncəsinə təsir etmək uğrunda daimi rəqabət mübarizəsi gedir. Maraqlıdır ki, bu mübarizə cəmiyyətdə gedən demokratik proseslər çərçivəsində baş verir və ideoloji baxışların formalaşmış balansına uyğun gələn ictimai inkişaf strategiyasına edilən dövri korrektə və düzəlişlərin mənbəyinə çevrilir, yəni hər bir vətəndaş tutduğu mövqeyə əsasən, ona həmin anda daha yaxın olan ideoloji platformanı azad şəkildə seçə bilməsi və seçkilərdə ona səs verməsi ilə səciyyələnir. Digər ictimai-iqtisadi formasiyalarda ideologiya sahəsində bu qədər böyük həcmdə nominal azadlıqlar heç vaxt mövcud olmamışdır. Belə bir ictimai-siyasi sistem daxilində nominal ideoloji azadlığın məhdudlaşdırılmasının yeganə yolu praktik olaraq ayrıca bir vətəndaşın azadlığının KİV-də reallaşdırılması imkanıdır, çünki məhz KİV ictimai fikrin formalaşmasına daha çox təsir edə bilir. Deməli, məhz KİV çoxlu sayda KİV kanallarına sahib olan ayrı-ayrı maliyyə qruplaşmalarının deyil, cəmiyyətin maraqlarının reallaşması imkanlarını müəyyənləşdirir.

## ƏDƏBİYYAT


**Azərbaycan dilində**

1. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı: Hüquq ədəbiyyatı, 2012, 723 s.
2. Xaqani Şirvani. Seçilmiş əsərləri. Bakı: Lider, 2004, 672 s.
3. İnsan hüquqları. Beynəlxalq müqavilələr toplusu. Bakı: Azərnəşr, 1998, 328 s.
4. Məhəmməd Füzuli. “Mətləül etiqad”, Azərbaycan MEA Ədəbiyyat muzeyi, s. 40
5. Mir Cəlal. Füzuli sənətkarlığı. Monoqrafiya, III nəşri. Bakı: Kaşqari, 2007, 357 s.
6. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı: Lider, 2004, 264 s.
7. Politologiya. Ensiklopedik lüğət. Bakı: Günəş, 2007, 426 s.
8. http://az.wikipedia.org/wiki/Nizami_Gəncəvi
9. http://az.wikipedia.org/wiki/İmmanuel_Kant
10. http://az.wikipedia.org/wiki/Xaqani_Şirvani
11. http://az.wikipedia.org/wiki/Pol_Anri_Holbax
12. http://www.google.az/referat.ilkaddimlar.com/d_word_refe_felse_1287.doc

**Rus dilində**

13. Бэкон Ф. Сочинения в 2-х томах. Т.1. М.: Мысль, 1971, 590 с.
14. Гольбах П. Избранные произведения. Т.1. М.: Мысль,1963, 715 с.
15. Демокрит. Тексты, переводы, исследования. Л.: Наука, 1970, 664 с.
16. Кант И. Сочинения. Т.3. М.: Мысль, 1964, 799 с.
17. Кант И. Сочинения в 6-х томах. Т.6. М.: Мысль, 1966, 743 с.
18. Маковельский А.0. Древнегреческие атомисты. Баку: АН Азербайджана, 1946, 402 с.
19. Монтескье Ш.Л. Избранные произведения. М.: Госполитиздат, 1955, 800 с.
20. http://ru.wikipedia.org/wiki/Шеллинг,_Фридрих_Вильгельм_Йозеф_фон

## СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКАЯ СУЩНОСТЬ СВОБОДЫ СЛОВА И ЧЕЛОВЕКА В ГРАЖДАНСКОМ ОБШЕСТВЕ

**И.А.МАЗАНЛЫ**

**РЕЗЮМЕ**

В статье СМИ рассматриваются как средство реализации свободы слова и права человека на информации в процессе демократизации общества и построения гражданского общества. Особое внимание уделяется вопросам социально-политической сущности свободы слова и человека в гражданском обществе и их реализация посредством СМИ. СМИ также рассматриваются как важный элемент гражданского общества. В статье разработаны научные и практические рекомендации для совершенствования деятельности соответствующих социально-политических институтов в этом направлении.

**Ключевые слова:** свобода слова, печать, свобода человека, гражданин, общество, СМИ

## SOCIAL AND POLITICAL ESSENCE OF FREEDOM OF SPEECH AND HUMAN FREEDOM IN A CIVIL SOCIETY

**I.A.MAZANLI**

**SUMMARY**

In this article Mass Media is considered as a factor of realization of freedom of speech and right for information in conditions of democratization of a society and establishment of lawful state. The special attention is given to the social and political essence of regulation of Mass Media and its real practical activity. Mass Media is also characterized as an element of a civil society. The legal provision of freedom of speech, the Mass Media activity, problems of interaction and mutual responsibility of the subjects of legal interrelations in Mass Media are prioritized here. The author substantiates the importance of the complex scientific and logically generalized researches in this sphere and tries to determine their general directions.

**Key words:** freedom of speech, media, human freedom, society, Mass Media